# Belarus Respublikasının spirtli içkilər bazarına dair araşdırma

Meyvə şərabları 2018-ci ilin I rübündə pərakəndə satışı azalan alkoqol qrupunun yeganə mövqeyinə çevrilib. 2017-ci ildə meyvə şirələrinin pərakəndə satışı azalırdı. Şərab satışının ümumi artımını təmin etmək üçün üzüm şərabı (2,9%) və köpüklü şərabın (3,8%) istehlakında orta dərəcəli artımın olması kifayət etmədi. Nəticə etibarilə, keçən il daxil olmaqla, Belarusda şərab bazarının tənəzzülünün 3-cü ili olub. 2016-cı ilə nisbətən şərab satışları 3,2% azalmışdır.

Belarus alkoqol bazarının ən böyük payını pivə tutur. 2017-ci ilin yekunlarına əsasən, alkoqol istehlakının ümumi strukturunda pivə alkoqol satışının 63% -ni təşkil edir (2016-cı ildə - 62%). Bu içki qiymət baxımından əlverişlidir, eyni zamanda Belarus istehsalçıları son illərdə məhsulun keyfiyyətini əhəmiyyətli dərəcədə qaldırıblar. Fəal marketinq və reklam fəaliyyəti də istehlakı daha da stimullaşdırır (bütün alkoqollu məhsullardan yalnız pivənin reklam edilməsinə icazə verilir). Alkoqol istehlakında araq istehlakı da xüsusi əhəmiyyətə malikdir. 2017-ci ilin nəticələrinə görə pərakəndə satışın ümumi həcmində araq satışından 15% gəlir (ondan əvvəlki il olduğu kimi) əldə edilmişdir.

Digər məhsullar (konyak, likör, az spirtli içkilər) Belarus spirtli içkilər bazarının əhəmiyyətli hissəsini təşkil etmir lakin bu seqment iqtisadi böhrana və əhalinin artan gəlirlərinin təsirinə baxmayaraq 2017-ci il və 2018-ci ilin əvvəllərində daha da inkişaf etmişdir.

Rəqabətlilik mühiti:

Alkoqollu içkilər bazarı- bu Belarus istehsalçıları üçün ənənəvi bazardır. Spirtli içkilərin istehsal həcmi idxaldan 6 dəfə artıqdır. İdxal olunan spirtli içkilər dövlət tərəfindən sərt qaydalarla tənzimlənir. Belarusun Antiinhisar Tənzimlənmə və Ticarət Nazirliyi tərəfindən hər il ictimaiyyətə idxal olunmasına icazə verilən alkoqollu içkilərin siyahısı barədə məlumat verilir. 2017-ci ildə bu siyahıya 20 adda Fransa istehsalı şampan şərabları, 50-dən çox adda Moldova, Ermənistan və Fransa istehsalı olan konyaklar, Böyük Britaniya, ABŞ, İrlandiya, Kanada istehsalı olan 1000 adda viski, 30 adda rom və 4 adda cin daxil edilmişdir.

Bundan əlavə hər il dövlət tərəfindən alkoqol məhsullarının idxalına xüsusi hüququnun həyata keçirilməsini təmin edən hüquqi şəxsləri müəyyən edən müsabiqə keçirilir. Hər bir hüquqi şəxsə müəyyən gömrük kodlarına uyğun olaraq məhsulların idxalına icazə verilir. Hüquqi şəxslərin siyahısı prezident tərəfindən təsdiq edilir.

2018-ci ildə Belarusun spirtli içkilər bazarını bir sıra dəyişikliklər gözləyir. Səhiyyə Nazirliyi spirtli içkilərin 21 yaş həddindən aşağı (hazırda 18 yaş həddidir) insanlara satılmamasını təklif edir. Daxili İşlər Nazirliyi spirtli içkilər satışına məhdudiyyətin qoyulmasını təklif edir. Eyni zamanda bəzi tünd spirtli içkilərin istehsalı üçün kvotalar artırılır. Spirtli içkilərin istehlak və tələbat strukturu əhalinin gəlirlərinə əsasən formalaşacaqdır.

Aparılmış tədqiqata aşağıdakı məlumatlar daxil edilmişdir:

- Şərab, konyak, araq və likör seqmentləri üzrə məlumat
- İstehsal, ixrac və idxal haqqında məlumat
- İstehsalçılar, idxalçılar və ixracatçılar haqqında məlumat
- Bazarın mövcud vəziyyətinin analizi və perspektivlərinin təhlili